# Sevgi, inam və məsuliyyət mübarizə yolu kimi



Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının təşəbbüsü ilə keçirilən "Virusla döyüşən həyatımız" adlı onlayn esse müsabiqəsinin qalibi (birinci yer) "Azərbaycan dili və ədəbiyyat müəllimliyi" ixtisasının tələbəsi Jalə Məmmədovanın təqdim etdiyi esse.

Dünya təhlükədədir, başının üstündə qara buludlar var. Artıq bir neçə aydır ki o, amansız bir müharibədədir. Bəli, müharibə. Bu, elə bir müharibədir ki, burada dünya özünə qarşı yox, inadkar virusa qarşı mübarizə aparır. Bir neçə aydır ki, dünya xalqları bir-birini öldürməyə yox, yaşatmağa çalışır, bir neçə aydır ki, dünya xalqları birlik olub virusa qarşı birgə mübarizə aparır.

Koronavirus hər kəsi öz caynağına alır, hər kəsi öz zəhərinə tuş etmək istəyir. İlk dəfə Çinin Uhan şəhərindəki bazarda balıq məhsulları satan bir qadının yoluxduğu bu virus indi qadın, kişi, uşaq, cavan, yaşlı demədən hər kəsi caynağına almağa çalışır.

Onun zəhəri onun özüdür, onun silahı özüdür. Ey insan oğlu, qorxma! Bu, sənin mübarizəndir, bu, sənin sınağındır. Bəli, biz virusla döyüşürük, sən düşünürsən ki, sən əliboşsan, sənin silahın yoxdur, uduzacaqsan. Yox, bu, belə deyil. SİLAHSIZ MÜHARİBƏ OLMUR!!!

Sənin silahın sevgindir-ailənə, xalqına, dövlətinə, insanlığa, bəşəriyyətə, ən əsası özünə olan sevgindir.

Sənin silahın sənin inamındır-ailənə, xalqına, dövlətinə, ən əsası özünə qarşı olan inamındır.

Sənin silahın sənin məsuliyyətindir-ailənə, xalqına, dövlətinə, ən əsası özünə qarşı olan məsuliyyətindir.

O nə qədər amansızdırsa, sən də o qədər qərarlı ol! Bu 3 silahından möhkəm yapış: Sevgini, inamını, məsuliyyətini heç vaxt itirmə! Düzdür, sən məktəbə, universitetə, hətta bəlkə işə gedə bilmirsən, amma bir də yaxşı tərəfindən bax, sənin sevdiklərinə yetərincə vaxt ayırmağa zamanın var, öz qabiliyyətlərini inkişaf etdirmək üçün yetərincə zamanın var. Dərsə gedə bilməsən də distant təhsil almaq imkanın var. Bu, sənin əlinə düşən şansdır, onu yaxşı qiymətləndir, zamanını boşa xərcləmə.

Sən tək deyilsən. Sənin yeddi milyarddan çox silahdaşın var. Sənin Prezidentin – İlham Əliyev kimi Ali Baş Komandanın var. Elə isə onun göstərişlərinə əməl et və əmrlərinə tabe ol. Bunu unutma, bütün bəşəriyyətin taleyi sənin əlindədir, bəşəriyyətin xilası üçün EVDƏ QAL!

Sevginə sarıl, inamını artır və məsuliyyətini dərk et!

Qəhrəman olmaq istəyirsənsə, EVDƏ QAL!!!

Hələlik evdə qal! Hər şey mütləq yaxşılığa doğru dəyişəcək…

Azərbaycan müəllimi.- 2020.- 19 iyun.- S.13.